

*Vaqif Aslan*
*AYB Şəki bölməsinin sədri*

***

Anam, mən şəhid oldum…

Anam, mən şəhid oldum…
Şəhidlik necə olur?
Mən ona şahid oldum!

***

Yurduma qurban oldum
şirin canımla, anam!
Suvardım torpağımı
qızıl qanımla, anam!

***

Şahanə dur, şax dayan,
sil gözünü, ağlama!
Oddan paltar gey, anam,
qürurlan, yas saxlama!

***

Anam, xeyir-dua ver,
qisasımız alınsın!
Yurdun hər addımında
zəfər marşı çalınsın!

***

Sancılsın bayrağımız
qanımız axan yerə!
Toqquşduqca mərmilər
şimşəklər çaxan yerə!

***

Onda qanım tökülən
torpağa qoyaraq baş
Ağlarsan hönkür-hönkür,
sızlarsan yavaş-yavaş!

***

Alındıqca halallıq
torpağım, daşlarımdan.
Anam, göyərəcəyəm
sənin göz yaşlarından!
19 sentyabr 2020.

***

Salam, Əsgər Tanrıkut!
Tanrıkut Əsgər, salam!

I

Salam, Əsgər Tanrıkut!
Tanrıkut Əsgər, salam!
Sən Tanrının zalıma
qırmancısan, vəssəlam!

***

Kəsəndə işıq kimi,
əsəndə yel kimisən.
Çaxanda şimşək kimi,
axanda sel kimisən.

***

Damar-damar birləşib
türkün qeyrəti səndə.
Oğuz, qıpçaq saflığı,
qarlıq heyrəti səndə.

***

Başqurd, çuvaş, telengidt
diləyir uğur sənə.
Əl edir tatar, tuvin,
qarağac, uyğur sənə.

II

Salam, Əsgər Tanrıkut!
Tanrıkut Əsgər, salam!
Ədalətin bükülməz
biləyisən, vəssəlam!

***

Alpər Tonqa demişdir:
- Olsan doğru ol, düz ol!
Yurd-yuva əmanəti!
Oda-ocağa göz ol!

***

Mətə xan söyləmişdir:
- Türk yağıya yedilməz!
Can fəda edilsə də,
torpaq fəda edilməz!

***

Bilgə xaqan ayıtmış:
- Özün-özünü bölmə!
Bölüm-bölüm bölünüb
ayaqlar altda ölmə!

III

Salam, Əsgər Tanrıkut!
Tanrıkut Əsgər, salam!
Sən yıxılı evlərin
dirəyisən, vəssəlam!

***

Türk qanına boyanan
çaylar da gəlir dilə
-Göy hələ basılmayıb,
dələnməyib yer hələ!

***

Erməni süngüsündə
çabalayır körpələr.
Sınıq körpülər sənə
söyləyəcəkdir nələr!

***

Əsir daşlar tökərək
gözündən yaşlar sənə
Hər addımda bir yeni
hekayət başlar sənə.

IV

Salam, Əsgər Tanrıkut!
Tanrıkut Əsgər, salam!
Sən haqqın, insanlığın
gərəyisən, vəssəlam!

***

Daşlar altından çıxan
bir çağa əli gördüm.
Sən əl verdin o ələ,
mən onu, bəli, gördüm!

***

Hayes canı saxlanan
şüşə var, əllərdədir.
Gör, hansı ölkələrdə,
gör, hansı ellərdədir.

***

O şüşəni qır belə!
Yeni dünya qur belə!
Düzlüyün, həqiqətin
keşiyində dur belə!

V

Salam, Əsgər Tanrıkut!
Tanrıkut Əsgər, salam!
Haq da var, divan da var!
Söz sənindir, vəssəlam!

***

Öldürür insanlığı
insan əti yeyənlər.
İmanı, əqidəni göy
əskiyə düyənlər.

***

Şeytan, iblis, ifritə
Tanrını təkləyibdir.
Qiyamət deyilən gün
tamam gerçəkləyibdir.

***

Salam, Əsgər Tanrıkut!
Tanrıkut Əsgər, salam!
Qabaqda Qılkörpü var,
keçməlisən, vəssəlsm!

21 oktyabr 2020.

## *AZIX MAĞARASI*

*"Rularla söhbət"*
*poemasından*

Yenə şaxta, sazaq, yenə boran, qar,..
Donub hər nə var.
Külək ac qurd kimi ulayıb keçir,
Üzümü,gözümü yalayıb keçir.
Amma hər tərəfim oddu ,ocaqdı...
Dörd yandan üstümə alovlar axdı.
Çəkib nəfəsimi içimə birdən,
Dəli vulkan kimi püskürdüm həmən.
Ocaqlar kül olub havaya uçdu.
Ulu Ruh sevincək boynumu qucdu.
Bu dəm qabağımız dirəndi dağa,
Dağ özü başladı buz bağlamağa.

Qəhqəhə qarışıq səslər ucaldı:
- Axır ki,özünü tələyə saldı.

Bu, şaxtada donmur,
Bu, odda yanmır.
Basıb üstümüzdən keçir, dayanmır.
Ayağı altında ovuluruq biz.
Kül olub havaya sovruluruq biz.
- Birbaşa işığa gedir, bir baxın.
Onu o işığa qoyarsaq yaxın.

Bizim iç üzümüz çıxacaq üzə.
Dünya hansı gözlə baxacaq bizə?
Sirrin açılması ölümə təndir,
Bizimki qaranlıq, zülmətdir, çəndir.
- O, yaxın gəldikcə ocaq gur yanır.
Gör necə güclənir, gurhagur yanır.
- Ehey, buznəfəsli hayeslər, bir vaxt
Dəysə nəfəsiniz donurdu torpaq.
Ağaclar quruyur, otlar yanırdı,
Sular qaynayaraq buxarlanırdı.
Sizin ayağınız toxunan kimi,
Cənnət cəhənnəmə çevrilmədimi?
Hanı o gücünüz,o qüdrətiniz?
Diliniz-filiniz, məharətiniz?
- Neynəyək, bunların gözündə qan yox.
Tilsimlər qırılıb, bizlərdə can yox.
Necə ocaqdırsa bu od, bu ocaq,
Türkün nəfəsindən alışır ancaq.
Arə,mən yanıram, adam ol bir az.
-Bilmirsən? Hayesdə adamlıq olmaz.
- Axpercan, çöllərdə qoyma leşimi.
- Hara aparırsan qızıl dişimi?
- Demədim? Bu odu tapdayın, əzin!
Sonra bu torpaqda arxayın gəzin.
- Bir zaman şeytana tikərdin papış.
Get papış tikdiyin şeytandan yapış.
- Neyçün yiyə çıxdıq özgə yurda biz?
İş haqqa qalırsa,yadıq burda biz.
Qarabağ adıyla qara bir bağı
Saldıq boynumuza, ş əksiz, şübhəsiz.
Yaşaya bilərmi cənnətdə iblis?
- Hanı dalımızda duranlar, arə?
Görün çıxartdılar işi nə yerə.

- Arə,qoltuğuma köz qoymuşam mən.
Yandırır, əntəri çıxart əynimdən.
- Gön kimi sürtülüb hayesin üzü,
Adam ürəyində gəzdirər közü.
Sənə neçə kərə dedim: - Ay gədə,
Bizə olmayacaq Azıxdan Dədə.
- Bizim canımıza od qənim oldu.
Öldüm,qərib öldüm... Nə görüb öldüm?
Nə gorum, nə də ki, kəfənim oldu,
Lənətdən savayı nə mənim oldu?

Nazilib incəldi səslər, nəfəslər...
Alovlar içində əridi, getdi.
Çığıra-çığıra gələn hayeslər,
Bağıra-bağıra kiridi, getdi.
Dayandım ocağın tən ortasında.
Dörd yanım od-alov, mən - ortasında.
Nura qərq olubdur tağlar, otaqlar,
Par-par parıldayır daş çılçıraqlar.
Gözümə bir qoca görünür bu dəm,
Hüphündür, upuca görünür bu dəm.
Boylanır türklüyün baş zirvəsindən,
Yaddaş zirvəsindən, yaş zirvəsindən.
Baxır, Günəş doğur üzümə, Tanrım.
Qovuşdum yoluma, izimə, Tanrım.
Qovuşdum mən özüm özümə, Tanrım.
Bu ki Ulu Ruhdur,Ulu Ruh,Ulu...
Onunla gəlmişəm birgə bu yolu.

-Bəşər tarixində yanan ilk ocaq
Mənim ocağımdır yaxın gəl,qoçaq.
Bu ulu ocaqdan Damcılı,Tağlar
Od alıb,bürünüb nura o vaxtlar.
Əzəldən bağlanıb eyni bir oda
Tamtama, Aveydağ, Daş Salahlı da
Kök atıb göyərdik, qalxdıq o ki var.
Bizi üşütmədi dönən ruzigar.
Bir ağac,min budaq olduq o vaxtdan,
Od əskik olmadı bizim ocaqdan.

Vaxt vardı ki,bölünmüşdü dillər bütün,
Hayesə dil qalmamışdı,
dil vermişik.
Bölünmüşdü ellər bütün,
Hayesə el qalmamışdı,
el vermişik.

Görürsənmi nələr çəkir
Saf ürəkli,
Xoş diləkli xalqlar bu gün?
Tapdalanır haqlar bu gün.

-Ey Ulu Ruh, deyim sənə
Yenə sözün varmı mənə ?
- Səfərimiz yetdi başa,
Salam söylə keçdiyimiz
dağa-daşa.
Di qayıt get.
Mənzilə yet.
Əvvəl-əvvəl en aşağı.
Düşən kimi gün işığı,
Quru çayda yu üzünü,
İç suyundan doyunca sən.
İzləyəcək yol uzunu
Kasər ruhu səni,oğlum.
Şad ol ömrün boyunca sən,
Şad elədin məni,oğlum.
O gəldiyin buzlu yollar
əriyibdir.
Hər yanı gül bürüyübdür.
At ocağa, yansın kədər.
Türkün boyu boy atacaq
Göyə qədər.
Bundan belə yaz olacaq
bizim məkan.

Bu məkana qurbandır can!
Azərbaycan! Azərbaycan!

2 oktyabr 1992 - 9 yanvar 1994.

Şəki - Kiş kəndi.